# Paytaxt təhsilində yeniliklər

## Milli Dirçəliş Gününə həsr olunan tədbir keçirilib



Bakı şəhəri 18 nömrəli tam orta məktəbdə Milli Dirçəliş Gününə həsr olunmuş "Ağ çələngli Azərbaycan" mövzusunda konfrans keçirilib. Tədbirdə Yasamal rayonunda yerləşən ümumi təhsil məktəblərinin tərbiyə işləri üzrə direktor müavinləri, uşaq birliyi rəhbərləri və şagirdlər iştirak ediblər.

Öncə şagirdlər Dövlət bayrağını salona gətiriblər. Çıxış edənlər XX yüzilliyin xalqımızın yaddaşında dövlətçilik, müstəqillik, ərazi bütövlüyü uğrunda mübarizə əsri kimi qaldığını bildirib, dirçəliş yolunda verilən qurbanlardan, xalqımıza qarşı aparılan düşmənçilik siyasətinə etiraz əlaməti olaraq Azərbaycan ictimaiyyətinin ayağa qalxmasından, milli azadlıq hərəkatından danışıblar. Konfrans şagirdlərin çıxışları ilə davam edib. Məktəblilər vətənpərvər mövzuda şeirlər söyləyiblər.

## 100 məktəbdə "Milli Qəhrəmanlar" guşəsi yaradılacaq

Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Milli Qəhrəmanları Tanıtma İctimai Birliyi və Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları təşkilatının təşkilatçılığı ilə Bakı şəhərindəki 100 məktəbdə "Milli Qəhrəmanlar" guşəsi yaradılacaq. Layihəyə ilk olaraq 100 nömrəli tam orta məktəbdə start verilib.

Məktəblilərdə hərbi vətənpərvərlik hisslərinin gücləndirilməsi, gənclərin çağırışaqədərki hazırlığının yüksəldilməsi məqsədilə təşkil edilmiş "Milli Qəhrəmanlar" guşəsinin açılış mərasimində Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Binəqədi Rayon İcra Hakimiyyəti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsi, Milli Qəhrəmanları Tanıtma İctimai Birliyi, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları təşkilatı, Binəqədi rayonu şəhid ailələri və Qarabağ əlilləri təşkilatının nümayəndələri, habelə Binəqədi rayonunda yerləşən məktəblərin şagird və pedaqoji kollektivləri iştirak ediblər.

Azərbaycan Respublikasının müstəqilliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan tədbirdə Azərbaycanın Milli Qəhrəmanları Bəxtiyar Allahverdiyev, İntiqam Atakişiyev, Zabit Quliyev, Qarabağ müharibəsi veteranı Mürsəl Qurbanov çıxış edərək Milli Qəhrəmanlarımızın döyüş yollarından bəhs edib, gənclərə tövsiyələrini veriblər.

Tədbirdə şagirdlər vətənpərvərliyə həsr olunmuş şeirlər səsləndirib və maraqlı rəqs kompozisiyaları nümayiş etdiriblər.

Daha sonra Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları təşkilatı tərəfindən məktəbin pedaqoji kollektivi və şagirdləri Fəxri fərmanlar, Qarabağ müharibəsi veteranı Mürsəl Qurbanov isə "General Əliağa Şıxlinski" yubiley medalı ilə təltif edilib.

Qeyd edək ki, layihənin məqsədi milli qəhrəmanlıq zirvəsinə yüksəlmiş Vətən övladları haqqında məktəblilərdə daha geniş təəssürat yaratmaqdır.

## "Kreativ gənclər" layihəsi çərçivəsində görüş

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki bir sıra ümumi təhsil müəssisələrində "Kreativ gənclər" layihəsi çərçivəsində görüş olub.

Uşaq və yeniyetmələrin, eləcə də onların əlil həmyaşıdlarının təhsilə marağını artırmaq, asudə vaxtlarını səmərəli təşkil etmək və intellektual inkişafına təkan vermək məqsədi daşıyan layihə "Oriqami" Uşaq və Yeniyetmələr İctimai Birliyi tərəfindən reallaşdırılır.

Layihə çərçivəsində Sabunçu rayonu Maştağa qəsəbəsində yerləşən 108,187, 209, 255, 293 nömrəli tam orta məktəblərdə pedaqoji heyət və şagirdlərlə görüşlər keçirilib.

VIII-XI sinif şagirdləri ilə keçirilən görüşlərdə peşə seçimi, idman, sağlam həyat tərzi, yeni informasiya texnologiyalarından istifadə, ictimai həyatda gənclərin rolu, xüsusilə qızların ictimai həyatda fəal iştirakı barəsində fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, "Kreativ gənclər" layihəsi çərçivəsində görüşdə iştirak edən şagirdlərə xüsusi hazırlanmış dəftərxana dəstləri (təsvirli çanta, təsvirli döş nişanları, təsvirli qeyd dəftərçəsi, qələmlər və digər hədiyyələr) təqdim edilib.

## 800-dən artıq müəllim imtahan verib

Noyabrın 16-da məktəbəhazırlıq təlimlərində iştirak etmiş və hazırda məktəbəhazırlıq qruplarında məşğələ aparan müəllimlər üçün sertifikatlaşdırma imtahanı keçirilib. Bakı şəhəri üzrə 3 mərkəzdə təşkil olunan imtahan 1 saat davam edib. İmtahan Xəzər, Suraxanı, Sabunçu, Pirallahı rayonları üzrə 252, Nərimanov, Xətai, Nizami rayonları üzrə 62, Binəqədi, Qaradağ, Yasamal, Nəsimi və Səbail rayonları üzrə isə 18 nömrəli tam orta məktəbdə təşkil olunub.

Qeyd edək ki, imtahan Bakı Şəhəri üzrə Təhsil İdarəsinin təşkilatçılığı ilə Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu tərəfindən keçirilib. İmtahanda 800 nəfərdən artıq müəllim iştirak edib. İmtahanın nəticələrinə görə, hər bir müəllimə müvafiq sertifikat veriləcək.

## "75 məktəb" layihəsi: "dəyirmi masa"lar başa çatıb



"75 məktəb" layihəsi çərçivəsində keçirilən "dəyirmi masa"lara yekun vurulub. Paytaxtın bütün rayonlarını əhatə edən "dəyirmi masa"lara 600-dən çox iştirakçı qatılıb.

Məktəbləri layihənin istiqamətləri ilə tanış etmək və layihə çərçivəsində görüləcək işlərin müzakirə olunması məqsədilə təşkil olunan "dəyirmi masa"larda Bakı Şəhəri üzrə Təhsil İdarəsinin əməkdaşları, məktəb direktorları, direktor müavinləri, Azərbaycan dili və riyaziyyat fənlərini tədris edən müəllimlər iştirak ediblər. "Dəyirmi masa"larda layihəyə cəlb olunan məktəblərin tədris proqramının daha səmərəli təşkili istiqamətində təklif olunan müxtəlif mexanizmlər və keyfiyyətin artırılması üçün nəzarət işinin möhkəmləndirilməsi məsələləri müzakirə edilib.

Qeyd edək ki, BŞTİ 2016-2017-ci tədris ili üzrə fəaliyyətini "Təhsili dəyərə çevirək" devizi altında reallaşdırır. Bu məqsədlə il ərzində həyata keçiriləcək 25 yeni layihədən biri də "75 məktəb" layihəsidir. Layihənin məqsədi keyfiyyətli tədris, birgə rəhbərlik, məktəblərin təşkilati mədəniyyətinin inkişafı və təhsil sahəsindəki yeniliklərin uğurla icra olunması kimi dəyərləri təbliğ etməkdən ibarətdir.

## "Uşaq hüquqları aylığı"nın silsilə tədbirləri

20 oktyabr - 20 noyabr tarixlərini əhatə edən "Uşaq hüquqları aylığı" çərçivəsində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil məktəbləri və məktəbdənkənar təhsil müəssisələrində silsilə tədbirlərin təşkili davam edir.

Uşaq hüquqlarının həyata keçirilməsi mexanizminin yaxşılaşdırılması, onların daha effektiv müdafiəsinin təmin olunması, məktəblilər arasında hüquqi maarifləndirmənin aparılması məqsədini daşıyan tədbirlərdə Bakı Şəhəri üzrə Təhsil İdarəsi, rayon icra hakimiyyətləri, Ombudsman Aparatı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşları iştirak edirlər.

Aylıq çərçivəsində təhsil müəssisələrində "Mən öz hüquqlarımı bilirəm", "Uşaq hüquqlarının ən yaxşı bilicisi", "Uşaqlar öz hüquqlarını niyə bilməlidir?", "Sən öz hüquqlarını bilirsənmi?", "Hüquq dünyası", "Bizim hüquqlarımız", "Uşaq hüquqlarını pozmayaq", "Mənim hansı hüquqlarım var?", "Mənim qanunum məni müdafiə edir", "Uşağın ailədə və cəmiyyətdə hüquqları", "Dövlətimin tamhüquqlu vətəndaşıyam" və digər mövzularda "dəyirmi masa", disput, seminar, konfrans, treninq, təqdimatlar, rəsm və inşa müsabiqələri keçirilir.



Tədbirlərdə şagirdlər "Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir", "Hüquqi dövlətin əsasları" mövzularında mühazirələr dinləyir, "Uşaq Hüquqları Konvensiyası" adlı kitab və digər hüquqi nəşrlər haqqında məlumatlar əldə edirlər. Həmçinin, məktəblərin psixoloq, tibb işçiləri, hüquq məsləhətçiləri, polis əməkdaşları ilə görüşləri təşkil olunur.

Görüşlərdə ölkəmizdə uşaq hüquqlarının qorunması istiqamətində görülən işlərdən, hüquqa zidd əməllərə qarşı aparılan mübarizədən danışılır, şagirdlərə hüquqlarının pozulması hallarına qarşı mübarizə yolları izah edilir.

www.baku.edu.gov.az

## Məktəbdə "Qızıl payız" adlı tədbir keçirilib




Bakı şəhəri 14 nömrəli tam orta məktəbdə "Qızıl payız" adlı tədbir keçirilib. Əvvəlcə foyedə məktəb şagirdlərinin payız fəslini əks etdirən əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

Təhsil ocağının direktoru Hürzad Verdizadə çıxış edərək ölkə başçısı İlham Əliyev tərəfindən təhsilə göstərilən diqqət və qayğıdan, son illər respublikamızda şagirdlərin hərtərəfli inkişafı ilə əlaqədar həyata keçirilən uğurlu layihələrdən bəhs edib. Bildirib ki, 14 nömrəli tam orta məktəbdə keçirilən tədbir şagirdlərin yaradıcılıqlarını, ictimai fəallıqlarını inkişaf etdirmək məqsədilə təşkil olunub.

Sonra rus bölməsi üzrə ibtidai sinif müəllimi Esmira İsayeva 2 "e" sinfində keçirilən "Qızıl payız" müsabiqəsi barədə ətraflı məlumat verib. Daha sonra şagirdlərin hazırladıqları "Mən payızı niyə sevirəm?" adlı videoçarx nümayiş etdirilib, şeirlər səsləndirilib.

Sonda münsiflər heyətinin qərarına əsasən fərqlənən şagirdlər diplom və sertifikatlarla təltif ediliblər.

## Şagirdlər körpələr evi-uşaq bağçasının qonağı olublar

Bakı Modern Təhsil Kompleksinin 5-ci sinif şagirdləri məktəbin nəzdində fəaliyyət göstərən "Modern Baby" körpələr evi-uşaq bağçasının qonağı olmuşlar. Görüşün keçirilməsində məqsəd uşaqlarda mütaliəyə marağın artırılması və onlarda kitaba həvəs yaratmaq olub. Kompleksin direktoru Mina Əliyeva tədbiri giriş sözü ilə açaraq öz çıxışında ölkəmizdə uşaq ədəbiyyatına olan maraqdan, bu çap əsərlərinin tərtibatından bəhs edib. Körpələr tədbir boyu müxtəlif nağıl qəhrəmanları - Alyonuşka, Zoluşka, Tık-tık xanım, Cırtdan ilə görüşüblər. Müxtəlif ölkələrin uşaq nağıl qəhrəmanlarının obrazlarını canlandıran şagirdlər balacalara çox maraqlı anlar yaşadıblar. Nağıl qəhrəmanları da öz növbələrində balacalara maraqlı nağıllar söyləyərək onları kitab oxumağa səsləyiblər.



Sonda isə maraqlı viktorina keçirilib.

**Sifai SƏFƏROVA,**
*"Azərbaycan müəllimi"*